# Azərbaycan Milli Elmlər Akademiyası Gəncə Bölməsinin sədri, akademik Fuad Əliyevə

Hörmətli Fuad müəllim.

Azərbaycan ədəbiyyatşünaslıq elminin görkəmli nümayəndəsi, böyük nizamişünas alim, Əməkdar elm xadimi, filologiya elmləri doktoru, professor Xəlil Yusiflinin vəfatı xəbərini ölkəmizin elmi ictimaiyyəti dərin kədər hissi ilə qarşılayır.

Professor Xəlil Yusifli müstəqillik dövrü Azərbaycan nizamişünaslığının əsas yaradıcılarından biri idi. Onun dahi sənətkar haqqında ilkin mənbələr və nadir əlyazmaları əsasında yazılmış qiymətli əsərləri Nizami Gəncəvinin Azərbaycan xalqının milli iftixarı olan böyük mütəfəkkir olmasının elmi isbatıdır.

Azərbaycanda Nizamişünasların və klassik ədəbiyyatımızın bir neçə nəslinin formalaşdırılması və inkişafında professor Xəlil Yusiflinin mühüm xidmətləri vardır.

Müstəqil dövlətçilik ideallarımıza sədaqətlə xidmət edən professor Xəlil Yusiflinin yüksək mənəviyyatlı şəxsiyyət kimi də xatirəsi unudulmazdır.

Azərbaycan elmi professor Xəlil Yusiflinin timsalında görkəmli nümayəndəsini itirdi.

Milli Elmlər Akademiyası Gəncə Bölməsinin kollektivinə və mərhumun ailə üzvlərinə Azərbaycan elmi ictimaiyyətinin, ədəbiyyatşünas alimlərimizin başsağlığını çatdırır, hüzn və kədərimizi Sizinlə bölüşürük.

**Allah rəhmət eləsin!**

**İsa HƏBİBBƏYLİ**

*AMEA-nın vitse-prezidenti,*
*Nizami Gəncəvi adına Ədəbiyyat*
*İnstitutunun direktoru,*
*akademik*

**Ədəbiyyat qəzeti.- 2022- ci il.- 17 sentyabr.- S. 13.**